**AZƏRBAYCAN RESPUBLİKASININ**
**KONSTİTUSİYA MƏHKƏMƏSİ**

**Avropa Konstitusiya Məhkəmələri Konfransının XIX Konqresi**

**Məhkəmə Güzəştinin Formaları və Məhdudiyyətləri:**
**Konstitusiya Məhkəmələrində Baxılan İşlər**

# SORĞU VƏRƏQƏSİNƏ DAİR CAVABLAR

## I. Məhkəmə baxışına aid olmayan məsələlər və güzəştin intensivliyi

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi Azərbaycan Respublikasının Konstitusiyası ilə onun səlahiyyətlərinə aid edilmiş məsələlərə dair ali konstitusiya ədalət mühakiməsi orqanıdır və əsas məqsədləri Azərbaycan Respublikası Konstitusiyasının aliliyini təmin etmək, hər kəsin əsas hüquq və azadlıqlarını müdafiə etməkdir.

Konstitusiya Məhkəməsi Azərbaycan Respublikasında demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesində fəal iştirak edir, Konstitusiyanın aliliyinin təmin olunması, insan hüquqlarının və azadlıqlarının müdafiəsi sahəsində qəbul etdiyi qərarları ilə hər kəsin Azərbaycan Respublikasının Konstitusiyasına, qanunlarına hörmətinin möhkəmləndirilməsinə töhfəsini verməyə çalışmışdır.

Hər hansı bir şəxs tərəfindən, hər hansı bir səbəbdən bilavasitə, yaxud dolayı yolla konstitusiya icraatına məhdudiyyət qoyulması, təsir, hədə və müdaxilə edilməsi, habelə məhkəməyə hörmətsizlik göstərilməsi yolverilməzdir və Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq surətdə məsuliyyətə səbəb olur ("Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsi).

Azərbaycan Respublikası məhkəmələrinin fəaliyyəti yalnız ədalət mühakiməsinin və qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada məhkəmə nəzarətinin həyata keçirilməsinə yönəldilmişdir.

Konstitusiya Məhkəməsinin fəaliyyəti Azərbaycan Respublikası Konstitusiyasının aliliyi, müstəqillik, kollegiallıq və açıqlıq prinsipləri əsasında qurulur ("Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 4-cü maddəsi).

Konstitusiya ədalət mühakiməsi hər kəsin qanun və Konstitusiya Məhkəməsi qarşısında bərabərliyi əsasında həyata keçirilir ("Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 26-cı maddəsi).

Konstitusiya məhkəmə icraatı tərəflərin hüquq bərabərliyi və çəkişməsi prinsipləri əsasında həyata keçirilir. Konstitusiya Məhkəməsi konstitusiya məhkəmə icraatında tərəflərin sübutları və dəlilləri ilə bağlı deyildir və baxılan məsələlərin tam araşdırılmasına nail olmalıdır ("Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 28-ci maddəsi).

Konstitusiya Məhkəməsinin əsas səlahiyyəti şübhəsiz ki, Konstitusiyanın 130-cu maddəsində sadalanmış normativ hüquqi aktların Konstitusiyaya uyğunluğunun yoxlanılmasıdır. Bu səlahiyyəti vasitəsilə Məhkəmə Konstitusiyanın və qanunların aliliyini təmin etmiş olur.

Konstitusiya Məhkəməsinin mühüm səlahiyyətlərindən biri də Konstitusiyanın və qanunların şərhidir. Bu səlahiyyət Məhkəməyə bu və ya digər normanın məzmununu

aydınlaşdırmaqla onun real konstitusiya - hüquqi predmetini hüquqtətbiqedicilərin nəzərinə çatdırmağa və həmin normanın məhz bu mənaya uyğun dəqiq və eyni cür tətbiqi təcrübəsini formalaşdırmağa imkan verir. Məhkəmənin verdiyi rəsmi şərhlə hüquq norması müasir dəyərlər baxımından dolğunlaşdırılaraq daha təkmil forma alır və həmin normanın hər hansı digər qeyri-konstitusion formada tətbiqi mümkünsüz olur, beləliklə də, normanın tətbiqi qaydası dəqiqləşdirilməklə onun məhdudlaşdırıcı və ya genişləndirici formada qeyri-konstitusion tətbiqi təcrübəsi dəyişdirilmiş olur.

Konstitusiya Məhkəməsinin əsas səlahiyyətlərindən biri konstitusiya şikayətlərinə baxılmasıdır. Əsas Qanunun 130-cu maddəsinin V hissəsinə əsasən, hər kəs onun hüquq və azadlıqlarını pozan qanunvericilik və icra hakimiyyəti orqanlarının normativ aktlarından, bələdiyyə və məhkəmə aktlarından Konstitusiya Məhkəməsinə şikayət verə bilər. 2023-cü ilin iyul ayında qanunvericiliyə edilən dəyişikliyə əsasən, şikayətə Konstitusiya Məhkəməsi tərəfindən baxılmasına barəsində şikayət edilən məhkəmə aktı (Ali Məhkəmənin qərarı) Konstitusiyaya və ya qanunlarına uyğun olmayan normativ hüquqi akta əsaslandığı hallarda yol verilir.

Konstitusiya Məhkəməsi bəzən qanunvericiliyin şərhi və yaxud Konstitusiyaya uyğunluğu ilə bağlı baxdığı işlərdə məsələnin müstəsna olaraq hakimiyyətin digər qollarından birinin səlahiyyətinə aid olduğunu nəzərə alaraq, həmin orqanlara Konstitusiya Məhkəməsinin Plenumunun qərarından irəli gələn müvafiq qanunvericilik nizamlamalarının həyata keçirilməsinə və ya əlavə tədbirlərin görülməsinə dair tövsiyələr vermişdir. Hüquqi təbiətinə və qüvvəsinə görə belə tövsiyələr Konstitusiya Məhkəməsinin Plenumunun qərarında formalaşdırılmış hüquqi mövqelərə əsaslanan qərarın tərkib hissəsi kimi qəbul edilməlidir.

Eyni zamanda, “Konstitusiya Məhkəməsi haqqında” Azərbaycan Respublikası Qanununun 49-cu maddəsinə əsasən Məhkəmə iclasının gedişində sorğu, müraciət və ya şikayətin icraata qəbul edilməsindən imtina olunması əsasları aşkar edildikdə, habelə sorğu, müraciət və ya şikayət geri götürüldükdə Konstitusiya Məhkəməsinin Plenumu iş üzrə icraata xitam verir.

Bu Qanunun 37-ci maddəsində isə sorğu, müraciət və ya şikayətin icraata qəbul edilməsindən imtina olunması əsasları qeyd olunmuşdur. Belə ki, sorğu, müraciət və ya şikayətin tərtibi bu Qanunun tələblərinə uyğun olmadıqda; məsələ Konstitusiya Məhkəməsinin səlahiyyətinə aid olmadıqda; sorğu, müraciət və ya şikayət belə hüquqa malik olmayan orqan və ya şəxs tərəfindən verildikdə; sorğu və ya müraciət onun Konstitusiya Məhkəməsinə verilməsi barədə qərar qəbul etmiş kollegial orqanın iclasında yetərsay və lazımi səs çoxluğu olmadan verildikdə; məhkəmə aktından şikayət vermək hüququndan tam istifadə edilməsini və ya məhkəməyə müraciət etmək hüququnun pozulmasını təsdiq edən sənədlər təqdim olunmadıqda; məsələ üzrə Konstitusiya Məhkəməsinin qərarı mövcud olduqda sorğu, müraciət və ya şikayət Konstitusiya Məhkəməsinin icraatına qəbul edilmir.

Qeyd olunan hallar istisna olmaqla, digər bütün hallarda Konstitusiya Məhkəməsinə daxil olmuş sorğu, müraciət və şikayətlər bu Qanuna müvafiq olaraq baxılır və hüquqi qiymət verilir.

Azərbaycan Respublikasının Konstitusiyasında insan və vətəndaş hüquqları və azadlıqları, habelə onların reallaşdırılması mexanizmləri geniş təsbit edilmişdir. Əsas Qanunun ən böyük fəsli olan üçüncü fəsli bütünlüklə əsas insan və vətəndaş hüquqları və azadlıqlarına həsr edilmiş, həmin fəsildə demokratik, hüquqi dövlətdə təmin edilməsi zəruri olan hüquqlar və azadlıqlar, onların reallaşdırılması mexanizmləri, habelə ayrı-ayrı hüquqların beynəlxalq standartlara müvafiq olaraq, qanuni məhdudlaşdırılmasının yol verilən hədləri nəzərdə tutulmuşdur.

Konstitusiyanın heç bir müddəası insan və vətəndaş hüquqlarının və azadlıqlarının ləğvinə yönəldilmiş müddəa kimi təfsir edilə bilməz. Azərbaycan Respublikası ərazisində insan və vətəndaş hüquqları və azadlıqları birbaşa qüvvədədir.

## II. Qərarı qəbul edən təsisat

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 1-ci bəndinə əsasən Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi Azərbaycan Respublikasının Milli Məclisinin (Parlament) qəbul etdiyi qanunların, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarının, Azərbaycan Respublikası Milli Məclisinin qərarlarının, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarının, mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının Azərbaycan Respublikası Konstitusiyasına uyğunluğunu yoxlayır.

Eyni zamanda, bu maddənin III hissəsinin 2-ci bəndinə əsasən Konstitusiya Məhkəməsi Azərbaycan Respublikası Prezidentinin fərmanlarının, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarının, mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının Azərbaycan Respublikası qanunlarına uyğunluğunu yoxlayır.

Konstitusiya Məhkəməsi hər hansı normativ hüquqi aktın müddəasına rəsmi şərh verərkən və yaxud onun Konstitusiyaya uyğunluğunu yoxlayarkən həmin müddəanın tarixi inkişaf mərhələsinə diqqət yetirir. Şərh olunan müddəanın keçdiyi "tarixi yola" diqqət yetirərkən onun qəbul olunması zamanı qanunvericinin məqsədini, əsaslandırmasını və niyyətini nəzərdən keçirir. Məhkəmə müvafiq qanunvericilik aktının qəbul olunması zamanı hazırkı gündə qanunun aktuallığı və effektivliyi arasında analiz keçirir. Bu hər hansı qanunvericilik normasının Konstitusiyaya uyğunluğunun yoxlanılmasında və yaxud şərh edilməsində çox faydalıdır.

Qeyd edilməlidir ki, sorğu, müraciət və ya şikayətin predmetini təşkil edən hər hansı normativ aktın qanunverici orqan tərəfindən qəbul edilərkən böyük ictimai müzakirələrdən keçməsi onun Konstitusiyaya uyğunluğunu sığortalamır və Məhkəmə adi qaydada fundamental hüquqlara uyğunluqla bağlı araşdırmanın dərinliyinə görə hüquqi araşdırmanı tam və hərtərəfli aparır.

Konstitusiya prinsipləri və dəyərlərinin birmənalı təmin edilməsi üçün səlahiyyətli dövlət orqanlarına müvafiq hüquqi tövsiyələr verilə bilər. Bu zaman hakimiyyət bölgüsü prinsipinə əməl edilməsi şərtilə normayaradıcı institutlara Konstitusiya Məhkəməsinin qərarında göstərilən hüquqi mövqelərinə uyğun olaraq müəyyən hərəkətləri etmək tövsiyə olunur və bir sıra hallarda gələcək normayaradıcılığının konturları müəyyənləşdirilir.

Eyni zamanda, Konstitusiya Məhkəməsi tərəfindən hər hansı bir hüquq normasının Əsas Qanuna uyğunsuzluğu müəyyən edildikdə, yuxarıda qeyd edildiyi kimi, qanunvericilikdə boşluqların yaranması təhlükəsinin aradan qaldırılması və müvafiq hüquq münasibətlərinin tənzimlənməsinin vacibliyindən irəli gələrək, Konstitusiya Məhkəməsinin Plenumu öz qərarında qanunverici tərəfindən yeni hüquq normasının qəbul edilməsinə qədər müvəqqəti qaydalar müəyyən edə bilər. Konstitusiya prinsiplərinə əsaslanan həmin qaydalar hüquqtətbiqedici orqanların praktiki fəaliyyətləri üçün böyük əhəmiyyət daşıyırlar.

## III. Hüquqların əhatə dairəsi, qanuniliyi və mütənasibliyi

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi hər hansı işə baxarkən müvafiq dövlət orqanları, o cümlədən icra hakimiyyətinə aid olan orqanların yazılı şəkildə rəyini öyrənir. Bu rəylərdə həmin təsisatlar insan hüquqlarının həyata keçirilməsi ilə bağlı qanunvericilik normalarına öz mülahizələrini təqdim edirlər. Lakin həmin mülahizələr Konstitusiya Məhkəməsi üçün məcburi deyillər və Konstitusiya Məhkəməsi öz mövqeyini Əsas Qanunda təsbit edilmiş hüquqların Konstitusiya mahiyyətini nəzərə alaraq formalaşdırır.

Bir sıra qərarlarında Konstitusiya Məhkəməsi ədalətlilik, bərabərlik, hüquq və azadlıqların ictimai maraqlara aid mütənasiblik prinsiplərinə riayət edilməsinin zəruriliyini qeyd edib.

29 oktyabr 2010-cu il tarixli Qərarında, Konstitusiya Məhkəməsinin Plenumu qeyd etmişdir ki, normanın düzgün şərh edilməsi üçün, Konstitusiyanın Preambulasında əksini tapan qanunun aliliyinin tərkib hissəsi olan mütənasiblik prinsipi nəzərə alınmalıdır. Mütənasiblik prinsipinə müvafiq olaraq fiziki və ya hüquqi şəxslərin hüquqi statusuna hər hansı müdaxiləni nəzərdə tutan tədbirlər inzibati orqanın güddüyü qanuni məqsədə mütənasib olmalı, həmin məqsədə çatmaq üçün öz məzmunu, yeri, vaxtı və əhatə etdiyi şəxslərin dairəsi baxımından zəruri və yararlı olmalıdır.

Eyni zamanda, Konstitusiya Məhkəməsinin Plenumu 2020-ci il 24 aprel tarixli Qərarında qeyd etmişdir ki, mənəvi zərərin vurulmasının sübut edilməsi kifayət qədər mürəkkəb olduğundan, bu növ iddialarda şəxs maddi deyil, mənəvi aləmində, şüurunda baş vermiş mənfi halları, sarsıntını və s. məhkəmə qarşısında sübut etməlidir.

Bu baxımdan Konstitusiya Məhkəməsinin Plenumu hesab etmişdir ki, məhkəmədə mənəvi zərərlə bağlı işə baxılarkən zərərçəkmiş şəxsin mənəvi və fiziki iztirablar keçirməsi ilə əlaqədar zərərin hansı şəraitdə və hansı hərəkət (hərəkətsizlik) nəticəsində vurulması, zərər vuranın təqsirinin dərəcəsi və mübahisənin həlli üçün əhəmiyyət kəsb edən digər hallar ətraflı araşdırılaraq müəyyən edilməlidir.

Həmin Qərarda Konstitusiya Məhkəməsinin Plenumu belə nəticəyə gəlib ki, ölmüş və ya sağlamlığına zərər vurulmuş şəxsin yaxınlarından, o cümlədən ailə üzvlərindən birinin mənəvi zərərə görə təzminat almış olduğu halda, digərlərinin təzminat tələbi bu Qərarda göstərilən mütənasiblik və ədalətlilik meyarlarına uyğun olaraq işə baxan məhkəmə tərəfindən həll edilməlidir. Məhkəmələr tərəfindən mənəvi zərərə görə təzminatın miqdarı müəyyən edilərkən hüquqazidd əməlin növü, dərəcəsi, davam etdiyi müddət, hansı şəraitdə, mühitdə baş verməsi və digər amillər nəzərə alınmalıdır.

Konstitusiya Məhkəməsinin Plenumu bir sıra qərarlarında mülahizə sərbəstliyi prinsipinə istinad edərək, həmin prinsipi məhz İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin yanaşması əsasında tətbiq etmişdir. Belə ki, Konstitusiya Məhkəməsinin Plenumu 26 iyul 2023-cü il tarixli Qərarında qeyd etmişdir ki, vergitutma elementlərinin müəyyən edilməsi zamanı qanunverici kifayət qədər geniş mülahizə sərbəstliyinə malikdir. Bununla bağlı İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarında formalaşmış hüquqi mövqelərə də rast gəlmək mümkündür. Avropa Məhkəməsi dəfələrlə bildirmişdir ki, tutulacaq verginin növü və məbləği ilə bağlı, nəyin vergi tutulan gəlir kimi təsnif ediləbiləcəyini qiymətləndirmək və müəyyən etməkdə daxili qanunverici orqanlar Konvensiya orqanlarından daha yaxşı mövqedədirlər (Guıso and Consıglıo İtaliyaya qarşı iş üzrə §44 və Cacciato İtaliyaya qarşı iş üzrə §25, 2018-ci il 8 fevral tarixli Qərarlar).

Konstitusiya Məhkəməsi Plenumunun 23 iyul 2020-ci il tarixli Qərarında isə qeyd edilmişdir ki, qanunverici vergitutmanın əsas elementlərini və vergilərin miqdarını, vergi ödəyicilərinin və vergitutma obyektlərinin tərkibini, vergi dərəcələrinin növlərini, vergi dövrünün davamlılığını, vergi bazasının müəyyənləşdirilməsi üçün gərəkli olan dəyər və kəmiyyət göstəricilərini, vergilərin hesablanma qaydasını və s. müəyyən edərkən kifayət qədər geniş mülahizə sərbəstliyinə malikdir.

Qərarda qeyd edilmişdir ki, oxşar hüquqi mövqelər İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarında da əks olunmuşdur. Məhkəmə dəfələrlə qeyd etmişdir ki, tərəf Dövlətlər öz vergi siyasətlərini formalaşdıraraq və həyata keçirərək, vergilərin ödənilməsini təmin etmək üçün hazırlıq görmək məqsədi ilə müəyyən mülahizə sərbəstliyinə malikdirlər (Gasus Dosier-und Fördertechnik GmbH Niderlanda qarşı iş üzrə 1995-ci il 23 fevral tarixli, N.K.M. v. Macarıstana qarşı iş üzrə 2013-cü il 14 may tarixli, §65 və Microintelect OOD Bolqarıstana qarşı iş üzrə 2014-cü il 4 mart tarixli, §42 Qərarlar).

Bununla belə, Plenum hesab etmişdir ki, qanunvericinin qeyd edilən mülahizə sərbəstliyi hədsiz deyil və Konstitusiyada təsbit olunmuş tələblərlə, o cümlədən Konstitusiyanın 25-ci maddəsinin I hissəsində və 71-ci maddəsinin II hissəsində əks olunmuş bərabərlik və mütənasiblik prinsipləri ilə məhdudlaşdırılır.

Əlavə olaraq qeyd edilməlidir ki, Avropa Məhkəməsi heç bir qərarında Konstitusiya Məhkəməsini səmərəsiz vasitə kimi tanımamışdır.

## IV. Digər xüsusiyyətlər

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin məqsədləri konstitusiya quruluşunun əsaslarını, insan və vətəndaşın əsas hüquq və azadlıqlarını müdafiə etmək, Azərbaycan Respublikasının bütün ərazisində Konstitusiyanın aliliyini və bilavasitə təsirini təmin etməkdən ibarətdir.

Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada məhkəmələr insan hüquqlarının və azadlıqlarının həyata keçirilməsi məsələləri ilə bağlı Azərbaycan Respublikası Konstitusiyasının və qanunlarının şərh edilməsi haqqında Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə müraciət edə bilərlər.

Konstitusiyanın və qanunların şərhi Konstitusiya Məhkəməsinin mühüm səlahiyyətlərindən biridir. Bu səlahiyyət Məhkəməyə bu və ya digər normanın məzmununu aydınlaşdırmaqla onun real konstitusiya - hüquqi təyinatını hüquqtətbiqedicilərin nəzərinə çatdırmağa və həmin normanın məhz bu mənaya uyğun dəqiq və eyni cür tətbiqi təcrübəsini formalaşdırmağa imkan verir. Mühüm məqam ondan ibarətdir ki, Konstitusiya Məhkəməsinin verdiyi rəsmi şərhlə hüquq norması müasir dəyərlər baxımından dolğunlaşdırılaraq daha təkmil forma alır və həmin normanın hər hansı digər qeyri-konstitusion formada tətbiqi mümkünsüz olur.

Konstitusiya Məhkəməsinin təcrübəsində ümumi hallar var ki, Məhkəmə normanı Konstitusiyaya zidd elan etmək əvəzinə, onun mənasını müəyyən edərək, onun konstitusiya şərhini verir ki, bu normanın tətbiqi zamanı rəsmi təfsirdə qeyd olunan hüquqi mövqe rəhbər tutulur. Əslində, bu halda Konstitusiya Məhkəməsi hüquqi sahədə sabitliyin təmin edilməsi zərurətindən çıxış edir.

Konstitusiya Məhkəməsi öz qərarlarında bəzən təkcə Konstitusiyada bilavasitə təsbit olunmuş prinsiplərdən istifadə etməklə yanaşı, normativ hüquqi aktlarda əksini tapmayan prinsipləri də tətbiq edir, xüsusən də özünün hüquqi mövqelərinə istinad edir. Bununla yanaşı, bir sıra hallarda müraciətedənin vurğuladığı konstitusiya normalarından əlavə Plenum tərəfindən Konstitusiyanın digər normalarına da toxunularaq əlavə təminat kimi qaldırılır.

Eyni zamanda, onu da qeyd etmək lazımdır ki, məhkəmələrin müraciətləri əsasında qəbul edilmiş Plenum qərarlarında qanunverici və icra hakimiyyəti orqanlarına bir sıra tövsiyələr ünvanlanmışdır.

Əsas Qanunla nəzərdə tutulmuş səlahiyyətlərini həyata keçirərkən Konstitusiya Məhkəməsi hakimiyyətin digər qolları ilə qarşılıqlı fəaliyyət göstərir, qəbul etdiyi qərarları ilə milli hüquq sisteminin formalaşmasına, qanunvericiliyin inkişafına öz töhfəsini verir. Bu, Konstitusiya Məhkəməsinin Plenumunun qərarlarında formalaşdırılan hüquqi mövqelər vasitəsilə edilir. Xüsusilə vurğulanmalıdır ki, Konstitusiya Məhkəməsi istisnasız olaraq qanunvericiliyin ona verdiyi səlahiyyətlər çərçivəsində fəaliyyət göstərir, hakimiyyətin digər qollarının normayaratma fəaliyyətinə müdaxilə etmir.

Konstitusiya Məhkəməsi onun icraatına daxil olan iş ilə əlaqədar sorğu, müraciət və yaxud şikayətdə göstərilən konstitusiya normalarından əlavə digər konstitusiya normalarını təhlil edə bilər və öz mövqeyini əsaslandırmaq üçün digər konstitusiya normalarını təhlil etməklə baxılan işdə onları tətbiq edir. Bir sıra qərarlarda isə Konstitusiya Məhkəməsinin Plenumu qaldırılan hüquqi məsələni araşdırarkən bu məsələnin səmərəli və faydalı həll edilməsi məqsədi ilə sorğu, müraciət və ya şikayətlə qaldırılmayan, lakin məsələ ilə əlaqəli olan digər qanunvericilik normalarına öz hüquqi qiymətini verir.